

**VAQİF YUSİFLİ,**
**filologiya elmləri doktoru**

# "HİDAYƏT VƏ TEATR"

**"Hidayət və teatr". Belə bir kitab teatrsevərlərin və ədəbi ictimaiyyətin ixtiyarına verilib. Teatr tənqidinin son illərdə müəyyən səbəblərdən passiv olduğu bir zamanda bu tiipli kitabların nəşri əhəmiyyətlidir. Kitabın müəllifi sənətşünaslıq üzrə fəlsəfə doktoru İftixardır. O İftixar ki, mən onu lap əvvəldən-doxsanıncı illərdən bir aktyor kimi tanımışam. Sonralar onun, bir təşkilatçı-qurucu kimi İrəvan Azərbaycan Teatrının bərpa olunmasında böyük rol oynadığını, bu teatrın ənənələrinə, çoxillik təcrübəsinə arxalanıb demək olar ki, müasir bir teatr ərsəyə gətirdiyini gördüm. İftixar həm də sənətşünasdır, dövri mətbuatda müasir Azərbaycan dramaturgiyası ilə bağlı məqalələri də sübut edir ki, o, əsl teatr adamıdır, onun problemlərinə biganə deyil. "Hidayət və teatr" kitabını onun bir teatrşünas kimi də uğuru hesab etmək olar.**

### *Şair-dramaturq-publisist Hidayət Orucov*

hal-hazırda Qırğızıstanda səfirimiz olsa da, Azərbaycan ədəbi prosesində də öz sözünü deyir. Bir neçə il öncə onun "Burdan min atlı keçdi" kitabı nəşr olunub və bu kitabı müasir publisistikamızın dəyərli bir nümunəsi hesab etmək olar.

Əlbəttə, adətən, hər hansı bir sənətkar ədəbiyyatın yalnız bir janrında daha çox uğur qazana bilər, amma onun istedadı təkcə bir janrla məhdudlaşmırsa, hansında birincilik qazanmasının elə bir əhəmiyyəti yoxdur. Hidayət hər üç janrda-şeirdə, dramaturgiyada, publisistikada eyni bədii səviyyəni nümayiş etdirir.

"Hidayət və teatr" kitabı İrəvan Azərbaycan tetrının yaranması, 1882-ci ildən bu günə qədər keçdiyi tarixi yolun xatırlanmasıyla başlayır (1882-ci il aprelin 2-də kasıb tələbələrə kömək məqsədi ilə ikinci dəfə Məşədi İsmayıl və Vasaq Mədətovun "Tamahkarlıq düşmən qazanır" əsərinin tamaşasını oynamaqla İrəvan teatrı peşəkar fəaliyyətə qələm qoydu. 1885-ci ildlə isə Firudin bəy Köçərlinin Qori Müəllimlər Seminariyasını bitirdikdən sonra İrəvan şəhərinə gəlişi İrəvan teatrının həyatında ciddi dönüş yaratdı"). !928-ci ildə dövlət statusu alan İrəvan teatrına yeddi il sonra Cəfər Cabbarlının adı verildi. Ancaq 1951-ci ildə erməni hökuməti tetrın qapaldılması qərarını verdi.Təbii ki, Ermənistanda yaşayan azərbaycanlılara qarşı təqiblər, təzyiqlər İəəvan teatrına da tətbiq olunmalıydı.Ancaq teatrın üzvləri sevimli peşələrindən əl çəkmədilər, müxtəlif yerlərdə tamaşalar hazırlamaqla fəaliyyətlərini davam etdirdilər. 1967-ci ildə yerli ziyalıların təşəbbüsü, Azərbaycan Respublikasının səyi nəticəsində teatr yenidən bərpa olundu.Ancaq teatrda böyük hərcmərclik yarandı, sürətlə dağılmağa başlayırdı ki, 24 yaşlı Hidayət Orucovu bu teatra direktor göndərdilər. O, "Sovet Ermənistanı" qəzetində işləyirdi, Ermənistan hökuməti elə güman edirdi ki, gənc bir jurnalisti teatra direktor təyin etməklə hərcmərclik daha da artacaq, teatr süquta uğrayacaq. Ancaq belə olmadı.

Teatrın yaranma, formalaşma və təqib və təzyiqlər dövrünü xatırlatmaqla İftixar gəlib çıxır əsl mətləbin üstünə.

İyirmi dörd yaşlı bir gənc, hələ inzibati bir işdə çalışmayan və teatr aləminə o qədər də bələd olmayan Hidayət Orucovı İrəvan teatrında yeni bir mərhələnin əsasını qoyur. Düz on yeddi il (1968-1984) İrəvan teatrının direktoru vəzifəsində çalışır. Təbii ki, burada iki amili nəzərdə tutaq. Birincisi: Hidayətin böyük vətənpərvərlik duyğusu. Vətənə, millətinə, özü də erməni rəsmilərinin təzyiq və təqiblərinə məruz qala-qala bu sevgini ürəyində, ruhunda yaşadasan, ən çətin və məsuliyyətli vəzifənin belə öhdəsindən gəlmək olar.

"Gənc Hidayət düşündü, daşındı, əslində, yenicə başladığı və az zaman kəsiyində əldə etdiyi uğurlu jurnalistik karyerasını yarımçıq dayandıraraq, öz taleyini böyük risk altına qoymaqdan çəkinməyərək, milli mənafe xatirinə, dədə-babalarımızın min bir əziyyətlə o günə qədər gətirib çatdırdıqları bu qocaman sənət ocağını ölüm təhlükəsindən qurtarmaq üçün razılıq verdi".

**İkincisi: Hidayətin gənc bir şair kimi tanınmağı uzun çəkmədi, etiraf olundu. Amma onun dramaturgiya aləminə gəlişi 1976-cı ildən, yəni səkkiz il sonra başlandı. Təbii ki, burada istedad amili mühüm rol oynadı. Amma söhbət onun direktorluğundan gedirsə, qazanılan uğurlar da göz qabağında idi.**

### *Qafqaz teatrları*

arasında birincilər cərgəsinə yüksəlməsi, "Əməkdar mədəniyyət xadimi" fəxri adına layiq görülməsi, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin fəxri fərmanı ilə təltif olunması, Azərbaycan teatrları ilə sıx əlaqəsi, 1978-ci ildə teatrın 50 illik şənliklərinin keçirilməsi, uğurlu qastrol səfərləri, Azərğaycanda bu teatrın uğurlarının sənətsevərlər-yazıçılar, tənqidçilər tərəfindən yüksək qiymətləndirilməsi və s. uğurlar Hidayətin və teatr kollektivinin qazandığı zəfərlər idi. İftixar bütün bunları bircəbircə qeyd edir. Mən də çox yaxşı xatırlayıram ki, o dövrdə bu sənət ocağına təkcə İrəvan dövlət teatrı ilə yanaşı, həm də "Hidayətin teatrı" deyirdilər.



### *Kitabın ikinci fəsli*

***bütünlüklə Hidayətin dramaturgiyasına və tamaşaya qoyduğu əsərlərin səhnə taleyinə həsr olunmuşdur. Hidayət "Məhəbbət yaşayır hələ..", "Məni qınamayın", "Bu dünyanın adamları", "Durnalar qayıdanda", "Vətəndən ağırdı Vətənin yükü", "Burdan min atlı keçdi", "İrəvanda xal qalmadı", "Ömürdən uzun gecə" pyeslərin müəllifidir və bu pyeslərin hər biri müxtəlif teatrlarda tamaşaya qoyulmuşdur. Bu mənada onu xoşbəxt dramaturq adlandırmaq olar. Belə ki, adlarını çəkdiyim dram əsərləri təkcə İrəvan teatrında deyil, Azərbaycanda-Akademik Dövlət teatrında, Gənc Tamaşaçılar teatrında, S.Vurğun adına Rus dövlət teatrında, Şəki teatrında, Naxçıvan teatrında, Tədris teatrında, həmçinin Tiflis, Dağıstan, Qırğızıstan teatrlarında, həmçinin İrəvan teatrının bərpasından sonra bu teatrın səhnəsində tamaşaya qoyulub.***

Əlbəttə, bu dram əsərlərinin mövzuları müxtəlifdir, ancaq onların hamısını birləhdirən bir neçə xətt va Ən başlıcası-insan həyatı, o insan ki, sevgiyə inanır. O insan ki, çətinliklərlə, ağır sınaqlarla üzləşir, lakin öz mənəvi prinsiplərinə sadiq qalır. O insan ki, ictimai ədalətsizliyə, cəmiyyətdə hökm sürən haqsızlığa qarşı mübarizə aparır. O insan ki. türk olduğunu qətiyyən unutmur, milli münaqişələrə etiraz səsini ucaldır. Və o insan ki, 40-50 il bundan əvvəl yaşasa da, bizim ideallara sadiqdir və ruhən də müasirdir. Və bu səbəbdən bu dram əsərlərində qoulan problemlər indii də aktual səslənir. "Elə ilk əsərindən fikir və ifadə aydınlığı Hidayət dramaturgiyasının mühüm cəhəti kimi özünü təsdiqlədi".

İftixar Hidayətin hər bir dram əsərini həm ideya-mövzu, həm də bu əsərin səhnə taleyi baxımından təhlil edir. Burada müəllifin (İftixarın) dramaturgiyaya və teatr sənətinə bələdliyi özünü göstərir. Kitaba ön söz yazan professor-sənətşünas Məryəm Əlizadənin doğruü qeyd etdiyi kimi: "Aktual mövzuya müraciət edən müəllif qarşısına Hidayətin həyat və fəaliyyətini, onun dramaturji və publisistik yaradıcılığını tədqiq etmək, Azərbaycan mədəniyyəti tarixindəki yerini və rolunu müəyyənləşdirmək məqsədini qoymuşdur". Hidayətin dram əsərləri bu baxımdan Azərbaycan dramaturgiyası və teatrının uğurları kimi səciyyələndirilir.

"Məhəbbət yaşayır hələ" - yetmişinci illər Azərbaycan dramaturgiyasının və teatrının mənəvi-əxlaqi axtarışlar mövzusuna ardıcıl müraciəti bu əsərdə də davam edir.Zəfərlə Xatirənin məhəbbəti o dövr dramaturgiyamızda diqqəti cəlb edən süjetlərdən biri imdi.

Amma Hidayət bu süjetə özünün yanaşma tərzi ilə diqqəti cəlb etdi. Hidayətin sonrakı pyeslərinə də xas olan psixoloji effektlər, obrazların fərdi həyatı ilə ictimai duyğuları onun pyeslərində məxsusilik qazanır.

Həm də bu əsərlərdə dram əsərlənə xas olan konfliklələ zəngindir..

### *Hidayətin pyeslərindən*

**söz açan müəlliflər bir cəhəti xüsusilə vurğulayırlar-bu da lirik xəttin aparıcıf rol oynamasıdır. Təbii ki, burada onun şairliyinin də təsiri var. İftixar hər bir pyesi təhlil edərkən həm ayrı-ayrı obrazların taleyini izləyir (yəni bu obraz pyesdə hansı funksiyanı daşıyır), həm də bu obrazları ifa edən aktyorların oyunu üzərində müfəssl dayanır. Kitabı oxuduqca mən İrəvan teatrının aktyorlarından Vidadi Əliyevin, Marietta Kərimovanın, Şamil Dəmirçiyevin, Akademik teatrımızın aktyorlarından Səyavuş Aslanın, Məcnun Hacıbəyovun, Laləzar Mustafayevanın, Yaşar Nurinin, Eldəniz Zeynalovun, Hacı İsmayılovun, İlham Əsgərovun, Firəngimz Mütəlimovanın uğurlu ifaları haqqında təəssüratları ilə tanış oluruq. Lakin təbii ki, hər bir pyesin səhnə taleyini ilk növbədə, rejissor həll edir. Görkəmli rejissor Nəsir Sadıqzadə ilə başlayan bu proses Ağakişi Kazımovla, Mərahim Fərzəlibəyovla, Vaqif Əsədovla və b. rejissorlarla davam edir.**

### *Hidayətin teatr fəaliyyətinin uğurları*

barədə bir sıra görkəmli şəxsçiyyətlər fikir söyləmişlər (Yeri gəlmişkən qeyd edim ki, İftixar mətbuatı diqqətlə izləmiş və Hidayətin dramaturgiyası və teardakı uğurları barədə söylənilən heç bir məqaləni, resenziyanı unutmur, hamısını birbəbir tədqiqata cəlb edir).

Bəzi fikirlərə müraciət edək: Xalq yazıçısı Anar: "Həmin dövrdə Ermənistanda və ermənilər arasında yaşamaq bir fədakarlıq idisə, Hidayətin gördüyü işləri göbrmək ikiqat fədakarlıq idi". Xalq şairi Bəxtiyar Vlahabzadə: "Hidayət həm bir vətəndaş, həm də yazıçı kimi sözün düzünü deməyə çalışır və buna nail olur". Xalq şairi Nəbi Xəzri: "Hidayət yalnız bimr direktor kimi deyil, həm də dramaturq kimi, yeri gələndə rejissor, müəllim, yaxın məsləhətçi kimidir" .Ağakişi Kazımov:

"O, fitri fəhmi ilə teatr prosesini elə təşkil etdi ki, həm yaşlı aktyorlar, həm də cavanlar öz sənətlərində yeni aləm və münasibətlər kəşf etdilər". Belə misalların sayını artıra bilərik.

**İftixarın "Hidayət və teatr" əsəri heç şübhəsiz Hidayət Orucovun timsalında öir dramaturqu bizə tanıdır. O, Hidayətin İrəvanda gördüyü işləri Bakıda -eyni adlı teatrda da davam etdirir. Ona uğurlar arzulayaq!**